

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı


**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 238 (23.880)

*22 dekabr 2021-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməzi qəbul edib. Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə daim inkişaf etdiyi vurğulanıb, enerji sahəsində əməkdaşlığın ötən illərdə olduğu kimi davam etdirilməsi məmnunluqla qeyd edilib.

***

Prezident İlham Əliyev həmin gün Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzeni qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 dekabr 2021-ci il tarixli Sərəncamı ilə bir sıra birinci instansiya məhkəmələrinin hakimləri və sədrləri təyin edilmişdir. Təyin olunanlar arasında Naxçıvan Muxtar Respublikası birinci instansiya məhkəmələrinin hakimləri də vardır:

Zamiq Xudaverdi oğlu Əliyev

**Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsinin hakimi və sədri;**

Tural Ziyat oğlu Haqverdiyev

**Naxçıvan Muxtar Respublikası Ordubad Rayon Məhkəməsinin hakimi və sədri;**

Daşqın Yaqub oğlu Səfərov

**Naxçıvan Muxtar Respublikası Şahbuz Rayon Məhkəməsinin hakimi və sədri;**

Mehdi Ədalət oğlu Əliyev

**Naxçıvan Muxtar Respublikası Şərur Rayon Məhkəməsinin hakimi və sədri;**

Elnur Heydər oğlu Hüseynov

**Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin hakimi;**

Gülnar Xanlar qızı Səfərəliyeva

**Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər Məhkəməsinin hakimi;**

Seymur Əlfəddin oğlu Qarayev

**Naxçıvan Muxtar Respublikası Şərur Rayon Məhkəməsinin hakimi**

təyin edilmişlər.

## Babək rayonunun Cəhri qəsəbəsində yeni məscid istifadəyə verilib





Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət-din siyasəti ölkəmizdə uğurla həyata keçirilir, dini-mənəvi dəyərlərin qorunub-yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublikada dini-mədəni abidələr bərpa olunur, yeni məscidlər tikilir, dindarların ibadəti üçün hərtərəfli şərait yaradılır.

Dekabrın 21-də Babək rayonunun Cəhri qəsəbəsində yeni məscid istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, qəsəbə sakini Hacıfəxrəddin Səfərli minnətdarlıq edərək demişdir ki, muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri Cəhri qəsəbəsinin timsalında özünü aydın göstərir. Ötən il Cəhri kəndinə qəsəbə statusu verilmişdir. Qəsəbədə 2 tam orta məktəb, qəsəbə mərkəzi, sahə xəstəxanası, mədəniyyət evi, musiqi məktəbi, kitabxana, poçt bölməsi, yeni nəsil ATS, xidmət və ticarət mərkəzləri və 2 mərasim evi sakinlərin istifadəsinə verilmişdir. Bu işlərin davamı olaraq hazırda qəsəbə mərkəzi və yollar abadlaşdırılır. Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikada həyata keçirilən genişmiqyaslı tədbirlər sırasında milli-mənəvi dəyərlərimizə, o cümlədən yeni məscidlərin inşa edilməsinə, tarixi məscidlərin isə bərpa və təmir olunmasına diqqət və qayğı xüsusi yer tutur. Bu tədbirlərin davamı olaraq bu gün Cəhri qəsəbəsində tam yararsız vəziyyətdə olan tarixi məscidə yeni həyat verilir. Məscid orta əsrlər dövründən bəri Cəhri əhalisinin həyatında mühüm rol oynamışdır. Ancaq Sovetlər Birliyi dövründə baxımsızlıq ucbatından xeyli aşınmış, uçub-dağılmışdı.



Bu gün məscid Naxçıvan memarlıq məktəbinin ənənələrinə uyğun olaraq müasir üslubda yenidən inşa olunaraq əhalinin istifadəsinə verilir. Hacıfəxrəddin Səfərli qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə təbriklərini çatdırmışdır.

Məscidin imamı Faiq Fərəcov minnətdarlıq edərək demişdir ki, həyata keçirilən kompleks abadlıq işləri əhalinin rahat və firavan yaşamasına hesablanmışdır. Muxtar respublikada tarixi abidələr, türbələr, məscid və ziyarətgahlar bərpa olunur və onlara ikinci həyat verilir. Bu gün Cəhri qəsəbəsi üçün əlamətdar gündür. Çünki tarixi məscid müasir layihə əsasında yenidən tikilərək dindarlara hədiyyə edilir. Burada dindarların rahat ibadət etmələri üçün hər cür şərait yaradılmışdır.

Qəsəbə sakini Hacımüslüm Axundlu demişdir ki, bu gün muxtar respublikanın bütün kənd və şəhərləri abadlaşdırılır. Bununla yanaşı, Cəhri qəsəbəsində insanların rahatlığına xidmət edən bir sıra sosial obyektlər tikilib istifadəyə verilir. Yaradılan şərait sakinlərin sevincinə səbəb olur. Bu gün istifadəyə verilən məscid də sakinlər üçün hədiyyədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu ərazidəki məscid uzun illər insanların mənəviyyat ocağı olmuş, onları vətənə, dövlətə və dinə sədaqət ruhunda tərbiyə etmişdir. İnsanların mənəviyyatlı olması ölkənin xoşbəxtliyidir. Çünki mənəviyyatlı insanlar vətənpərvər insanlardır. Vətənpərvər insanlar isə harada yaşamalarından və hansı işlə məşğul olmalarından asılı olmayaraq, vətəninə, ölkəsinin möhkəmliyinə xidmət edirlər. Uzun illər işğal altında olan torpaqlarımız da məhz Ali Baş Komandanın rəhbərliyi ilə vətənpərvər və mənəviyyatlı insanlarımız, müzəffər ordumuz tərəfindən azad olundu. Əsgərlərimizin azad olunmuş torpaqlarda, dağıdılmış məscidlərdə Quran oxumaları insanlarımızın nə qədər böyük mənəviyyata sahib olmalarının göstəricisidir. Bu mənada, məscidlər təkcə ibadət yeri deyil, həm də mənəviyyat ocağıdır.

Ali Məclisin Sədri demişdir: İslam aləmini birləşdirən məscidlər müqəddəs yerlərdir. Bu ərazidə XV əsrdən etibarən məscid olmuş, sonrakı illərdə dağılmışdı. Ancaq həmin məscid abidə kimi Naxçıvan Muxtar Respublikasının

*Ardı 2-ci səhifədə*

Ensiklopediyasına daxil edilmişdir. Bu gün onun yerində yeni məscid ucaldılıb. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Mən məscid tikilməsini islam dininə hörmət edən, sadiq olan insanların ümumxalq işi kimi qiymətləndirirəm”***. Mənəvi dəyərlərə hörmət olan yerdə bərəkət, inkişaf və vətənə sədaqət olur. Ona görə də bu gün tikilən məscidlərimiz, ibadət yerlərimiz bir məqsədə xidmət edir: mənəvi dəyərlərimizi qorumaq, gəncləri vətənə sədaqət və vətənpərvər ruhda tərbiyə etmək. Bütün bunlar isə son nəticədə ölkəmizin inkişafına xidmət edir.

Ali Məclisin Sədri demişdir: Məscidlər, eyni zamanda bir elm mərkəzləridir. “Qurani-Kərim”in özü də elmi kitabdır və adı “qurmaq” sözündəndir. İnsanın mənalı ömür yolu keçməsi və mənəviyyatını zənginləşdirməsi müqəddəs kitabda öz əksini tapıb. Elm dindən ayrıdırsa uçurum, din elmdən ayrıdırsa xurafat olur. Ona görə də məscidlərimizdə həm mənəviyyat, həm də elm öyrədilir. Müqəddəs kitabımız “Qurani-Kərim” də insanlara həm mənəviyyat, həm də elm öyrədir. Elmlə dinin birləşməsi isə zənginlikdir. Bu gün yaradılanlar, qurulanlar müstəqilliyimizin bəhrələridir. Eyni zamanda müstəqilliyimizin verdiyi imkanlar hesabına mənəvi dəyərlərimiz yaşadılır. Təkcə məscidlər tikilmir, həmçinin dinimizin elmi tərəfdən yaşadılmasını təmin edəcək gənclər yetişdirilir. “Naxçıvan” Universitetində Dinşünaslıq ixtisası açılıb. Ona görə də məscidlər, sadəcə, ibadət yeri kimi deyil, həm də elmi və dini mərkəzlər kimi fəaliyyət göstərməlidirlər.

Ali Məclisin Sədri məscidin tikintisində əməyi olanlara təşəkkürünü bildirmişdir.

Məlumat verilmişdir ki, yeni məscidin tikintisinə ötən ilin avqust ayında başlanılmışdır. Məsciddə imam otağı, qadınlar üçün 44, kişilər üçün 85 yerlik ibadət zalı, 1 texniki otaq və 2 qarderob vardır. Məscidin minarəsinin hündürlüyü 19 metrdir. Həyətdə kişi və qadınlar üçün dəstəmaz yeri, cənazə yuma yeri və təsərrüfat otağı vardır.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev yaradılan şəraitə görə dindarlar adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Məscidin layihələndirilməsi zamanı, əsasən, milli memarlıq elementlərindən istifadə edilərək müasirlik ön plana çəkilmişdir. Binanın ön fasadında milli memarlığın əsas elementi olan baş portal yerləşdirilmiş və portal Möminə xatın türbəsinin ornamentləri ilə bəzədilmişdir.

Sonra məsciddə ilk namaz qılınmış, dualar oxunmuşdur.



## Cəhri-Gərməçataq kənd avtomobil yolu yenidən qurulur

Həmin gün Ali Məclisin Sədri Cəhri-Gərməçataq kənd avtomobil yolunda görülən yenidənqurma işləri ilə də maraqlanmışdır.

Məlumat verilmişdir ki, ümumi uzunluğu 20 kilometr olan yolun Cəhri qəsəbəsindən keçən hissəsində yol yatağı genişləndirilir, səki salınır, işıqlandırma dirəkləri qurulur. Yolda 5400 metr beton su kanalının çəkilməsi nəzərdə tutulmuşdur. Qəsəbə mərkəzində infrastruktur yenilənmiş, yol kənarındakı yararsız hasarlar sökülərək yenisi tikilmişdir.

Ali Məclisin Sədri yolda yenidənqurma işlərinin davam etdirilməsi və sakinlərin təkliflərinin nəzərə alınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ölkə Prezidentinin muxtar respublikaya səfərləri zamanı qeyd etdiyi fikirlər Naxçıvanın ümumi inkişaf mənzərəsini bütün aydınlığı ilə göstərir

*(“Şərq qapısı” qəzetinin materialları əsasında)*

***“Naxçıvan bizim hamımız üçün doğma diyardır, əziz vətəndir. Mənim atamın Vətənidir. Deməli, mənim də Vətənimdir. Hər bir azərbaycanlının Vətənidir”.*** Bu sözləri ölkə Prezidenti cənab İlham Əliyev 2004-cü il mayın 12-də Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yeni korpusunun təntənəli açılışına həsr olunmuş mərasimdə demişdir (14 may 2004-cü il, № 57). Ölkə başçısı müstəqilliyimizin banisi, ümummilli liderimiz Heydər Əliyevin doğulub boya-başa çatdığı qədim Nuh diyarı, Şərqin qapısı Naxçıvana dəfələrlə səfər etmişdir. Gəlin həmin səfərlərə 100 yaşlı “Şərq qapısı” qəzeti vasitəsilə yenidən nəzər salaq.

Qeyd edək ki, ümummilli liderimiz Heydər Əliyevin Prezident kimi 1996-2002-ci illər arasında Naxçıvana səfərlərində cənab İlham Əliyev də iştirak etmişdir. 1999-cu il oktyabrın 14-də Naxçıvan Muxtar Respublikasının yaranmasının 75-ci ildönümündə milli memarlığımızın möhtəşəm abidəsi Möminə xatın türbəsini ümummilli liderlə birgə ziyarət etmiş (14 oktyabr 1999-cu il, № 67-68), 2002-ci ilin 15 iyununda Naxçıvanda Olimpiya İdman Kompleksinin açılış mərasimində iştirak etmiş, buranın gənclər üçün, millətin gələcəyi üçün, gənclərin fiziki hazırlığı üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyi vurğulanmışdır (23 oktyabr 2002-ci il, № 71-72).

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında arzuları, istəkləri, planları artıq reallığa çevrilib. Azərbaycanın qədim torpağı Naxçıvanda müstəqillik illərində abadlıq, quruculuq işləri genişlənmiş, bu diyar əsaslı inkişafına görə diqqət mərkəzində olmuşdur. Naxçıvana həmişə xüsusi qayğı ilə yanaşan ümummilli liderimiz Heydər Əliyevin yolunu layiqli şəkildə davam etdirən cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra 2004-2021-ci illər ərzində Naxçıvana hər səfərində Naxçıvanda görülən işləri yüksək qiymətləndirmişdir.

2004-cü il mayın 12-də Prezident cənab İlham Əliyevin iştirakı ilə müasir Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş, Azərbaycanın digər hissəsindən təcrid olunmuş, çətin blokada şəraitində yaşayan Naxçıvanda sərnişinlər üçün yeganə nəqliyyat kommunikasiya vasitəsi olan Naxçıvan Beynəlxalq Hava Limanının təntənəli açılışı olmuşdur. Ölkə başçısı çıxış nitqində demişdir: ***“Çətin şəraitdə, blokada şəraitində yaşayan naxçıvanlılar böyük işlər görüblər. Bu hava limanının tikilməsi, şəhərdə digər obyektlərin inşa olunması, yüksək səviyyədə tikilməsi onu göstərir ki, Naxçıvan çox sürətlə inkişaf edir. Naxçıvan həmişə Heydər Əliyevin diqqət mərkəzində idi. Təkcə ona görə yox ki, Heydər Əliyevin Vətənidir və Heydər Əliyev Naxçıvanda doğulmuşdur. Ona görə ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən diyardır. Əlbəttə, Naxçıvanın hərtərəfli güclənməsinə Heydər Əliyev həmişə böyük əhəmiyyət verirdi. Bu siyasət davam etdiriləcəkdir”*** (13 may 2004-cü il, № 56). Həmin il mayın 13-də Prezidentin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müşavirəsində sürətlə inkişafına görə Naxçıvan Azərbaycanda lider hesab edilmişdir (15 may 2004-cü il, № 58).

Mayın 14-də isə Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyi təntənəli şəkildə qeyd edilmiş, Prezident cənab İlham Əliyev həmin tədbirdə nitq söyləmiş və naxçıvanlıları belə xarakterizə etmişdir: ***“Heydər Əliyev demişkən, naxçıvanlılar çox cəsarətli insanlardır. Onlarda milli qürur, milli şüur hissi çox yüksəkdir. Naxçıvan Azərbaycana böyük mütəfəkkirlər, elm, incəsənət, mədəniyyət xadimləri, siyasi xadimlər, böyük sərkərdələr bəxş etmişdir. Naxçıvan Azərbaycana və dünyaya xalqımızın ümummilli lideri Heydər Əliyevi bəxş etmişdir”*** (16 may 2004-cü il, № 59).



Ölkə başçısının 2004-cü il 2 sentyabr tarixli səfəri isə Heydər Əliyev adına tam orta məktəbi, Mülki Müdafiə Mərkəzi, Naxçıvan Üzgüçülük Mərkəzi kimi yeni sosial obyektlərin açılışları, Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə, yenə də Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafının yüksək qiymətləndirilməsi ilə yaddaqalan olmuşdur (3-4 sentyabr 2004-cü il, № 106-107 ). Ölkə başçısı 2005-ci il 19 dekabr tarixində Naxçıvana səfərə gəlmiş, bir sıra açılışlarda iştirak etmiş, burada aparılan işlərlə maraqlanmışdır. Həmin gün Prezidentin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmiş, qısa müddət ərzində Naxçıvanda gedən inkişaf prosesləri belə qiymətləndirilmişdir: ***“Blokada şəraitində yaşayan respublikanın belə böyük uğurlar əldə etməsində, əlbəttə ki, sizin hamınızın, hər birinizin əməyi var. Xüsusilə mən Naxçıvan Muxtar Respublikasının rəhbərini, Vasif Talıbovu bu münasibətlə təbrik etmək, ona minnətdarlığımı bildirmək istəyirəm. Bunu təkcə mən yox, Naxçıvana gələn hər bir qonaq, hər bir xarici nümayəndə, vətəndaş qeyd edir. Bu məni çox sevindirir”*** (22 dekabr 2005-ci il, № 243). Dekabrın 20-də Naxçıvana təbii qazın verilməsinə dair Azərbaycan və İran prezidentləri tərəfindən sənədlərin imzalanma mərasimindən sonra birgə mətbuat konfransı keçirilmiş, burada 15 ildən sonra Naxçıvana təbii qazın verilməsi tarixi hadisə kimi qiymətləndirilmiş, gələcəkdə ölkələrimiz arasında sıx əməkdaşlığın davam etdiriləcəyi qeyd edilmişdir (21 dekabr 2005-ci il, № 242).

Ölkə başçısı Naxçıvana səfərləri zamanı digər sahələr kimi, təhsil sahəsində də görülən işlərlə maraqlanmışdır. 2006-cı ildə Naxçıvana səfər edən cənab Prezident dekabrın 21-də Ordubad internat məktəb kompleksinin açılışında (22 dekabr 2006-cı il, № 235), 2007-ci il oktyabrın 17-də Naxçıvan Dövlət Universiteti Konservatoriyasının binasının açılış mərasimində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin qeyd olunması haqqında 2007-ci il 31 mart tarixli Sərəncamına əsasən tikilmiş binanın rəsmi açılış mərasimində çıxış edən dövlətimizin başçısı universitetin fəaliyyəti barədə demişdir: ***“Bu 40 il ərzində Naxçıvan Dövlət Universiteti böyük və şərəfli yol keçmişdir. Universitetin professor-müəllim heyəti öz biliklərini gənc nəslə yetirir… Mən çox istəyirəm ki, Azərbaycanda çox vətənpərvər, peşəkar, bilikli, savadlı gənc nəsil yetişsin ki, ölkəmizin gələcək inkişafına öz töhfəsini versin”*** (18 oktyabr 2007-ci il, № 199).

2008-ci il iyunun 4-də Azərbaycan Prezidenti cənab İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Təyyib Ərdoğan Naxçıvan Muxtar Respublikasında səfərdə olmuş, səfər çərçivəsində dövlət başçımız ilə Türkiyənin Baş naziri arasında təkbətək və geniş tərkibdə görüş keçirilmişdir. Görüşdə ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Görüşdən sonra cənab İlham Əliyev ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Türkiyə Respublikasının Baş naziri, indi isə Prezidenti olan Rəcəb Təyyib Ərdoğanla birgə mətbuat konfransı keçirmişdir. Konfrans zamanı ölkə başçısı Naxçıvanda keçirilən görüşün əhəmiyyətini vurğulamışdır: ***“...Bunun çox böyük siyasi mənası var. Naxçıvan o yerdir, o şəhərdir, o respublikadır ki, Türkiyə ilə Azərbaycan arasında yeganə sərhəd buradadır. Naxçıvanın inkişafında, xüsusilə onun 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə, Türkiyədən alınan dəstək çox mühüm rol oynamışdır. Bu gün isə bizim ölkələr arasında münasibətlər bütün sahələrdə sürətlə inkişaf edir”*** (5 iyun 2008-ci il, № 107).

2009-cu il avqustun 4-də ölkə başçısı cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edərək demişdir: ***“Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir, çox sevindirir. Naxçıvan müasir şəhərə çevrilibdir. Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır. Məktəblər, xəstəxanalar tikilir…Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla haqlı olaraq fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm”*** (5 avqust 2009-cu il, № 144).

Həmin il oktyabrın 3-də Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşündə iştirak etmişdir. Bu görüşdə Türkiyə, Qazaxıstan, Qırğızıstan prezidentləri, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini iştirak etmişdir. Görüş zamanı bir çox sahələrdə türkdilli ölkələr arasındakı qarşılıqlı əməkdaşlıq əlaqələri müzakirə olunmuş, TÜRKSOY Fondunun yaradılması təklif edilmiş, artıq keçmişdə qalan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur. Prezident çıxışı zamanı demişdir: ***“Biz beynəlxalq təşkilatlarda əməkdaşlıq edirik. BMT-də, İslam Konfransı Təşkilatında, ATƏT-də və digər təşkilatlarda bizim ölkələrimiz bir-birinə həmişə dəstək verir və bu, belə də olmalıdır. Çünki bizi müştərək tarix birləşdirir, tarixi mədəni köklər birləşdirir. Bizim birliyimiz təkcə ölkələrimizi gücləndirmir, bizim birliyimiz, böyük mənada, regional əməkdaşlığın da çox vacib amilidir”*** (4 oktyabr 2009-cu il, № 186).

Prezident cənab İlham Əliyev 2010-cu il oktyabrın 5-də Naxçıvana növbəti səfəri çərçivəsində 594 şagird yerlik Sədərək 2 nömrəli

*Ardı 3-cü səhifədə*

tam orta məktəbin yeni binasının açılışında iştirak etmiş və sədərəklilərin qəhrəmanlığını yüksək qiymətləndirmişdir: ***"Sədərəklilər, bütün naxçıvanlılar Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşmuşlar, qan tökmüşlər. Biz o illəri yaxşı xatırlayırıq və Azərbaycan torpaqları işğal altına düşəndən sonra erməni qəsbkarları, erməni millətçiləri gözlərini Naxçıvana da dikmişdilər, Naxçıvanı da işğal etməyə çalışırdılar. O vaxt ancaq naxçıvanlıların iradəsi və ulu öndər Heydər Əliyevin siyasəti nəticəsində naxçıvanlılar Naxçıvanı qorudular. Düşmənə imkan vermədilər ki, buraya soxulsunlar, düşməni yerinə oturtdular"*** (7 oktyabr 2010-cu il, № 187).

Dövlət başçısı 2012-ci il mayın 30-da, 2014-cü il aprelin 7-də Naxçıvana səfərə gəlmişdir. Ölkə başçısı 2014-cü il aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edən, Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana verilməsini böyük ədalətsizlik hesab etmiş, eyni zamanda bu qərarla Azərbaycanın coğrafi baxımdan iki yerə bölündüyünü diqqətə çatdırmış və tam əminliyini bildirmişdir ki, vaxt gələcək, biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq (9 aprel 2014-cü il, № 63). Bu gün artıq reallıqdır ki, xalqımız doğma torpaqlarına qayıtmışdır. Düşmənin bütün cəhdlərinə baxmayaraq, buna sarsılmaz iradə, güc, birlik hesabına nail olunmuşdur.

Muxtar respublikaya 2015-ci il dekabrın 1-dəki səfəri çərçivəsində ölkə başçısı Naxçıvan Muxtar Respublika Xəstəxanasının açılışını edərək demişdir: ***"Səhiyyə, təhsil, idman – budur əsas sosial infrastruktur məsələləri. Naxçıvanın inkişafı daim diqqət mərkəzindədir. Naxçıvan rəhbərliyi çox uğurla, səmərəli işləyir. Naxçıvanın siması dəyişir. Bu gün Naxçıvan nəinki Azərbaycanda, bölgədə, dünya miqyasında ən abad şəhərlərdən biridir"*** (2 dekabr 2015-ci il, № 236).

2017-ci il yanvarın 11-də Prezident cənab İlham Əliyev Naxçıvanda Fövqəladə Hallar Nazirliyinin zabit və gizirləri üçün inşa edilmiş yaşayış binasının, Şahbuz şəhərinin və ətraf kəndlərin içməli su sisteminin, Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində, Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsindəki əsgər yataqxanasının və əsgəri-məişət kompleksinin açılışında iştirak edib (12 yanvar 2017-ci il, № 7).

2018-ci il mayın 16-da ölkə başçısı muxtar respublikaya növbəti səfər etmiş, "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksinin, Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 6 nömrəli tam orta məktəbin açılışında, Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının istifadəyə verilməsi mərasimində iştirak etmiş və Naxçıvanda son illərdə görülən işləri belə qiymətləndirmişdir: ***"Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir"*** (17 may 2018-ci il, № 192).

Ölkə Prezidenti 2019-cu il noyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul edərək Naxçıvanın son illər ərzində böyük dərəcədə inkişafını, sosial və iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımları yüksək qiymətləndirmiş və demişdir: ***"Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir"*** (19 noyabr 2019-cu il, № 217).

Prezident cənab İlham Əliyevin Vətən müharibəsində əldə edilmiş Böyük Zəfərdən sonra 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına sayca on beşinci səfəri mühüm və əlamətdar hadisələrlə, xüsusilə yaddaqalan olmuşdur. Dövlətimizin başçısı bir sıra açılışlarda iştirak etmiş, quruculuq işləri ilə maraqlanmışdır. Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının təqdimatında, Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromunun, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının açılışında, Naxçıvanda Süni Mayalanma Mərkəzinin istifadəyə verilməsi mərasimində, Culfa-Ordubad magistral avtomobil yolunun, "Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin açılışında iştirak etmişdir. Ölkə başçısı həmin gün Ordubadda Azərbaycan Televiziyasına müsahibə vermişdir. Naxçıvan Muxtar Respublikasına səfəri ilə bağlı təəssüratlarını bölüşən dövlətimizin başçısı demişdir: ***"Təəssüratlarım çox müsbətdir. Hər zaman Naxçıvanda olanda, burada inkişafı görəndə çox sevinirəm. Bu mənim Naxçıvana 15-ci səfərimdir və hər səfər çərçivəsində bir çox obyektlərin açılışında iştirak edirəm. Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir... Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Bir sözlə, muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır"*** (17 may 2021-ci il, № 87).

Onu da qeyd edək ki, Böyük Qələbədən sonra imzalanan üçtərəfli Bəyanatın 9-cu maddəsi muxtar respublikanın blokadadan azad edilməsini nəzərdə tutur. Bu məsələni ölkə rəhbəri daim diqqət mərkəzində saxlayır. Regional əməkdaşlığın genişlənməsinə imkan yaradacaq bu addım, şübhəsiz ki, gerçəkləşəcək.

*Dövlətimizin başçısının Naxçıvana səfərlərini təhlil edərkən bir daha aydın olur ki, bu, 20 ildən artıq bir dövrdə muxtar respublikamızda hər bir sahədə inkişaf, irəliləyiş əldə olunmuşdur. Bu, ölkəmizdə, eləcə də, muxtar respublikamızda ümummilli lider Heydər Əliyev siyasətinin yaşadılması və onun yaradıcı şəkildə davam etdirilməsinin bəhrəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir:* ***"Hər bir ölkə inkişafa nail olmağa çalışır. Lakin o ölkədə inkişaf təmin olunur ki, orada sabitlik, müəyyən olunmuş inkişaf yolu və dövlət-xalq birliyi olsun. Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda inkişaf, sabitlik və dövlət-xalq birliyi təmin olunub. Ölkəmiz inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutub".***

**Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyasının təqdimat mərasimi olub



Naxçıvan Muxtar Respublikasında daimi fəaliyyət göstərən ştatlı Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyası və Həkim-Uçuş Komissiyasının yaradılması həyata keçirilən genişmiqyaslı sosial islahatların bəhrəsidir. Naxçıvan Qarnizonu Mərkəzi Hospitalında yeni yaradılmış komissiyanın təqdimat mərasimi keçirilib.

Təqdimat mərasimində Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev komissiyanın yaradılmasının əhəmiyyətindən danışaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodrom kompleksi ilə yanaşı, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının da açılışını edib və burada yaradılan şəraitlə tanış olub. Yeni 5 mərtəbəli binada hərtərəfli şərait mövcuddur və bu da Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyasının və Həkim-Uçuş Komissiyasının fəaliyyətinə geniş imkanlar açır.

Sülh və müharibə dövrlərində Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında yerləşən ordu, birlik, birləşmə və hissələrində, hərbi təhsil müəssisələrində, hüquq-mühafizə orqanlarında tibbi şəhadətləndirilməni və hərbi-həkim ekspertizasını keçirmək Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyasına həvalə olunub.

General-polkovnik Kərəm Mustafayev Naxçıvan Muxtar Respublikasının ərazisində hərbi xidmətə (orqanlara) könüllü daxil olan, Naxçıvan Muxtar Respublikasında yaşayan Azərbaycan Respublikası vətəndaşlarının sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlılıq kateqoriyasının, hərbi qulluqçuların və vətəndaşların aldıqları xəsarətlərin (yaralanmaların, travmaların, kontuziyaların), xəstəliklərin hərbi xidmətlə (hərbi toplanışla) səbəb əlaqəsinin operativ şəkildə təyin edilməsi, eləcə də hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilməyə aid digər məsələlərin mərkəzləşdirilmiş qaydada Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyasında və Həkim-Uçuş Komissiyasında öz həllini tapacağını qeyd edib.

Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyasının rəisi, tibb xidməti polkovniki Tarqulu Tarquluyev komissiyanın tərkibi və fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verib. Komissiyanın rəisi yeni yaradılan komissiyada qanunvericiliyə uyğun olaraq tibbi şəhadətləndirilməsi aparılacaq sosial kateqoriyalar haqqında ətraflı məlumat verib. Xəsarətlərin və xəstəliklərin, ölümlə nəticələnmiş xəsarətlərin və xəstəliklərin səbəb əlaqəsinin təyin edilməsi, vətəndaşların hərbi xidmətdən (orqanlarda xidmətdən) buraxıldıqları an üçün hərbi xidmətə yararlılıq kateqoriyasının təyin edilməsi, hərbi qulluqçuların və orqanlarda xidmət keçən vətəndaşların nəqliyyat vasitələrini idarə etməyə yararlılığının təyin edilməsi komissiyaya həvalə olunub.

Tədbirin sonunda Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev muxtar respublikada yerləşən qoşun və orqanların heyətləri adından göstərilən qayğıya və yaradılan şəraitə görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlıq edib və yeni yaradılan komissiyanın fəaliyyətinə uğurlar arzulayıb.

Təqdimat mərasimindən sonra tədbir iştirakçıları Naxçıvan Qarnizonu Mərkəzi Hospitalında yaradılan şəraitlə və Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyası və Həkim-Uçuş Komissiyasının fəaliyyət göstərəcəyi xidməti otaqlarla tanış olublar, komissiyaya və Naxçıvan Dövlət Universitetinin Hərbi həkim ixtisasının tələbələrinə ayrılmış nəqliyyat vasitələrinə baxıblar.

**Nəriman NƏCƏFOV**

## Naxçıvan Dövlət Universitetinin "E-cədvəl" mobil tətbiqi "NETTY 2021" Azərbaycanın milli internet mükafatını qazanıb



Naxçıvan Dövlət Universiteti İKT və ET şöbəsi tərəfindən hazırlanan "E-cədvəl" mobil tətbiqi Elm, Təhsil və İnnovasiyalar tətbiqlər və utilitlər nominasiyası üzrə "NETTY 2021" Azərbaycanın milli internet mükafatına layiq görülüb. 200-dən çox layihənin iştirak etdiyi müsabiqədə Virtual Münsiflər Heyəti və Ekspert Şurasının səsverməsi nəticəsinə görə mükafatın nominantı olmuş saytlar, səhifələr və proqramlar seçilib. Daxili səsvermə əsasında akademiyanın nümayəndələri mövcud nominasiyalardan hər birində bir qalib müəyyən ediblər.

Qeyd edək ki, tələbə "E-cədvəl" mobil tətbiq sayəsində dərs, kollokvium, imtahan cədvəllərinin, imtahan suallarının və nəticələrinin vahid platformada birləşdiyi istənilən elektron materialı buradan əldə edə bilər.

Məlumat üçün onu da bildirək ki, Azərbaycanın İnternet Mükafatı olan NETTY 2004-cü ildə təsis olunub. NETTY Qlobal İnternet Şəbəkəsi və ümumilikdə, informasiya texnologiyaları bazarının milli seqmentdə inkişafının təşviqi üçün informasiya texnologiyaları sahəsində ölkəmizdə yaradılmış ilk peşəkar mükafatdır. NETTY hər il informasiya texnologiyaları sahəsində Azərbaycanın əhəmiyyətli internet resurslarını, tətbiqlərini, sosial platforma resurslarını, aktual informasiya texnologiyaları layihələri və aparıcı fiqurları müəyyən edir və mükafatlandırır.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Muxtar respublikada ailə, qadın və uşaq hüquqları qorunur

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması noyabr ayında da diqqətdə saxlanılmış, bir sıra tədbir, seminar, təlim və monitorinqlər keçirilmişdir.*

Ötən ay özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən əl işləri mağazalarında qadınların əl işləri satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Ailə təsərrüfatı məhsulları" satış yarmarkasında komitə tərəfindən sərmayə kapitalı alan, eləcə də istedadlı qadınlar tərəfindən, ümumilikdə, 5442 adda əl işi və ailə təsərrüfatı məhsulları sərgilənmişdir. Keçirilən 2 günlük satış-yarmarkada 50 qadının 819 adda 2281 manat dəyərində ailə təsərrüfatı məhsulları və əl işi satılmışdır. Hesabat dövrü ərzində 54 qadının 836 adda 3533 manat dəyərində ailə təsərrüfatı məhsulları və əl işi satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında tək qadınların və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlər həyata keçirilir. Şəhər və rayon icra hakimiyyətlərindən aid kateqoriyadan olan qadınlar haqqında məlumatlar alınmış, komitədə yaradılmış bazaya əlavə edilmiş, təhlili aparılmışdır. Bununla bağlı Culfa rayonu üzrə 50 qadınla əlaqə saxlanılmış, onlardan 8-nin, Kəngərli rayonu üzrə 1 nəfərin, ümumilikdə, 9 nəfərin peşə fəaliyyətinə yönləndirilməsi ilə bağlı komitə tərəfindən müvafiq tədbirlər görülür. Alınan məlumatlar Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinə göndərilmişdir. Əlavə olaraq sərmayə kapitalı verilmiş qadınlarla bağlı kataloqun hazırlanması üçün lazımi tədbirlər görülür. Muxtar respublikada həyata keçirilən müvafiq layihələr çərçivəsində sərmayə kapitalı alan qadınlardan 9-nun təsərrüfat sahəsində sərmayə kapitalından düzgün istifadəsi ilə bağlı monitorinq keçirilmişdir.

Culfa rayonunda yaşayan sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan ailənin üzvü olan qadınlar üçün dekorativ-tətbiqi sənət sahəsinin öyrənilməsi ilə bağlı təlim keçirilmişdir. Təlimdə istedadlı qadın Səkinə Qarayeva əyani vasitələrdən istifadə etməklə iştirakçılara bu sənətin sirlərini öyrətmişdir. Təlimdə xüsusi qayğıya ehtiyacı olan ailədən, sağlamlıq imkanları məhdud və Culfa Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin müvafiq dərnək rəhbərləri və dərnək üzvü olmaqla, ümumilikdə, 16 qadın iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair yaradılmış elektron məlumat bankına noyabr ayı ərzində 54 uşaq haqqında fərdi məlumatlar daxil edilərək uşaqların sayı 36 min 435-ə çatmışdır. "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar ötən ay Şərur, Şahbuz və Kəngərli rayonları üzrə tədrisə cəlb edilmiş 208 sağlamlıq imkanları məhdud uşağın təhsil aldığı 33 müəssisədə, həmçinin 7 sağlamlıq imkanları məhdud uşağın məktəbəqədər təhsil müəssisələrinə cəlbi ilə bağlı evlərində monitorinq keçirilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həll edilməsi diqqətdə saxlanılmış, ümumilikdə, 87 uşağa mövsümlə əlaqədar qış geyimi verilmişdir.

2021-ci il 18 noyabr tarixdə Bakı şəhərində keçirilən Azərbaycan uşaqlarının V ümumrespublika forumunda Naxçıvan Muxtar Respublikasını 10 uşaq təmsil etmiş, 2-nin birbaşa, 8-nin onlayn formatda iştirakı təmin edilmişdir. Onlayn iştirak edən uşaqlar komitədə lazımi texniki avadanlıqlarla təchiz olunmuş "Zoom" proqramı vasitəsilə tədbirə qoşularaq müzakirələrdə iştirak etmişlər. Forumda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri iştirak etmişdir. 20 noyabr – Ümumdünya Uşaq Günü ilə əlaqədar Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində tədbir keçirilmiş, təhsil, incəsənət və idman sahəsində uğur qazanan 18 uşaq təltif olunmuşdur. Tədbirin bədii hissəsində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Gənc Heydərçilər" dərnəyinin və Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs qruplarının, Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasının balaca fidanlarının ifasında vətənpərvərlik mövzusunda kompozisiya nümayiş edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 21 dekabr 2021-21 yanvar 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 70 manat ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər. Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Müsabiqədə magistr təhsilini başa vurmuş və ya magistraturanın ikinci kursunda təhsil alan şəxslərin iştirakı məqsədəuyğundur.

Həqiqi hərbi xidmət keçməmiş şəxslər (qadınlar və səhhəti ilə əlaqədar möhlət hüququ olanlar istisna olmaqla) müsabiqəyə buraxılmır.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar mərkəzin *(036) 545-65-71* nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Struktur bölmə | Ştat sayı | Vəzifə |
|---|---|---|---|
| | **1. Bölmənin Aparatı** | | |
| 510001 | Beynəlxalq əlaqələr və informasiya şöbəsi | 1 | şöbə müdiri |
| | **Cəmi:** | **1** | |
| | **2. Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu** | | |
| 511004 | Qədim və orta əsrlər tarixi şöbəsi | 1 | böyük laborant |
| 511014 | Yeni və ən yeni tarix şöbəsi | 1 | böyük laborant |
| 511024 | Etnoqrafiya şöbəsi | 1 | böyük laborant |
| 511034 | Qafqaz tarixi şöbəsi | 1 | böyük laborant |
| | **Cəmi:** | **4** | |
| | **3. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu** | | |
| 512004 | Musiqi və teatr şöbəsi | 1 | böyük laborant |
| 512024 | Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsi | 1 | böyük laborant |
| 512034 | Folklorşünaslıq şöbəsi | 1 | böyük laborant |
| | **Cəmi:** | **3** | |
| | **4. Bioresurslar İnstitutu** | | |
| 513004 | Dənli, paxlalı və texniki bitkilər laboratoriyası | 1 | böyük laborant |
| 513014 | Meyvə, tərəvəz və üzümçülük laboratoriyası | 1 | böyük laborant |
| 513024 | Nəbatat şöbəsi | 1 | böyük laborant |
| 513034 | Bitki sistematikası şöbəsi | 1 | böyük laborant |
| 513044 | Biokimyəvi tədqiqatlar laboratoriyası | 1 | böyük laborant |
| 513054 | İnnovasiya və elm-istehsalat şöbəsi | 1 | böyük laborant |
| 513056 | İnnovasiya və elm-istehsalat şöbəsi | 1 | texnoloq |
| 513074 | Zooloji tədqiqatlar şöbəsi | 1 | böyük laborant |
| | **Cəmi:** | **8** | |
| | **5. Təbii Ehtiyatlar İnstitutu** | | |
| 514014 | Hidrogeologiya və mineral sular laboratoriyası | 1 | böyük laborant |
| 514024 | Coğrafiya şöbəsi | 1 | böyük laborant |
| 514034 | İqtisadiyyat şöbəsi | 1 | böyük laborant |
| 514044 | Fiziki tədqiqatlar laboratoriyası | 1 | böyük laborant |
| | **Cəmi:** | **4** | |
| | **6. Batabat Astrofizika Rəsədxanası** | | |
| 515004 | Səma cisimlərinin mövqe müşahidələri şöbəsi | 1 | böyük laborant |
| | **Cəmi:** | **1** | |
| | **7. Əlyazmalar Fondu** | | |
| 516004 | Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsi | 1 | böyük laborant |
| 516014 | Əlyazmaların mühafizəsi, gigiyenası və bərpası laboratoriyası | 1 | böyük laborant |
| | **Cəmi:** | **2** | |
| | **8. Bölmənin Nəşriyyatı** | | |
| 517001 | Nəşriyyat | 1 | direktor |
| | **Cəmi:** | **1** | |
| | **Yekun:** | **24** | |

## Rəqiblərinin qorxulu "Röya"sı

### *Naxçıvanın ilk qız dünya çempionu*



***Bir çox sənətin atadan övlada keçməsi ölkəmizin dəyişməyən adət-ənənələrindəndir. Övladlar böyüyərək atadan gördüklərini mənimsəyir, onun cızdığı yolu gedir, hətta bəzi məqamlarda onları belə, geridə qoyurlar. Bunun idmana şamil olunması isə son illər özünü qabarıq şəkildə büruzə verməkdədir. Lakin burada bir məqamı, xüsusilə qeyd etmək lazımdır – bu yolda qız övladlarının idmana marağı ələlxüsus vurğulanmalıdır. Ümumiyyətlə, XX əsrin əvvəllərində qızların idmanla məşğul olması dövrün etik prinsiplərinə görə qeyri-mümkün idi. Ancaq zamanın sürətli axarı, tələblərin dəyişməsi bu stereotipi də sürətlə qırılmağa vadar etdi. Nəticədə, bu fikrin yanlış olduğu öz təsdiqini tapdı. Bu gün haqqında bəhs edəcəyimiz idmançımızı hələ çoxları tanımır. 13 yaşlı qəhrəmanımız bəziləri üçün qeyri-ənənəvi növdə çıxış etməsinə baxmayaraq, qarşısına böyük hədəflər qoyub.***

*İdmançı ailəsi*

Tanış olaq: Abdullayeva Röya Xəyal qızı. O, 8 oktyabr 2008-ci ildə Naxçıvan şəhərində, idmançı ailəsi mühitində dünyaya gəlib. Atası Xəyal Abdullayev uşaqlıqdan idmanla məşğul olub və bir çox uğura imza atıb. Atasının dediyinə görə, ailədə Röyanın zehni fəaliyyətilə yanaşı, fiziki aktivliyi də həmişə diqqət mərkəzində olub. Atası ilə yanaşı, əmisinin də idmançı olması Röyanın da idmana yönləndirilməsini zərurətə çevirib. Əvvəlcə ilkin məqsəd, sadəcə, sağlamlıq olsa da, zamanla valideynlərin maraqları dəyişir. Qısa vaxt kəsiyində ondakı bacarıqlar özünü büruzə verməyə başlayır.

*Niyə məhz idmançı qız?*

Atası, eyni zamanda məşqçisi Xəyal Abdullayevlə söhbətimizdə əsas məqam kimi Röyanın idmana marağı diqqətimizi çəkdi: "Bəzən valideynlər uşaqlarını sevdikləri peşədən kənar saxlayırlar. Bu həm uşağa, həm də onun gələcəyinə mənfi təsir göstərir. Hazırda muxtar respublikamızda idmançılara göstərilən diqqət və qayğı göz qabağındadır. Mən qızımın hansı sahəni seçəcəyinə qarışmırdım, seçim onun özünün idi – idmanı seçdi. Uşağa baxdım, boyu, digər göstəriciləri nəzərimi çəkdi. Özü ilə söhbət etdim və yalnız ona "bu işi yarıda qoymayacaqsansa, hər zaman uğur sənin yanında olacaq. Çalış, Vətənini hər yerdə layiqincə təmsil et", – dedim. Açığı, onun yaşından böyük hərəkətlər etməsi, xarakteri, psixologiyası ürəyimcədir. Məşqlərdə qarşılaşdığı çətinlikləri heç vaxt büruzə vermir. Valideyn kimi yox, bir məşqçi kimi bu məni çox heyrətləndirir, qürurlandırır. Onu gələcəkdə daha yüksək yerlərdə görürəm və inanıram ki, Naxçıvanı, Azərbaycan idmanını dünya arenalarında layiqincə təmsil edəcək".

*Uğura aparan ilk titul...*

Uşaqlıqdan döyüş növləri ilə məşğul olan Röya Abdullayeva 2017-ci ildən



etibarən yarışlarda, turnirlərdə mübarizə aparmağa başlayıb: "İlk yarışımda həyəcanıma yenilməmək, büruzə verməmək üçün başımı yuxarı qaldırmırdım. Bunu heç kim hiss etməsə də, atam hiss edirdi. Bu yarış mənim üçün çox böyük əhəmiyyət daşıyırdı, çünki uzun zaman idi məşq edirdim və ilk yarışımda qalib gəlmək istəyirdim. Rinqə çıxdığımda bir anlıq hər şeyi unutdum və yalnız rəqibimin hərəkətlərinə adaptasiya oldum. Nəticə istədiyim kimi oldu və MMA üzrə Naxçıvan çempionu adını qazandım". Bu qələbə Röyanın karyerasında ilk olsa da, davamı daha uğurlu alındı. Ardıcıl olaraq 5 dəfə muxtar respublika çempionatının qalibi olan qəhrəmanımız 2019-cu ildən etibarən ölkə birinciliklərində iştirak etməyə başladı. Elə həmin il pankration və qrappling üzrə Açıq Bakı çempionatında qızıl və gümüş medal qazanan Röya bir il sonra kikboksinq üzrə Azərbaycan çempionatının qalibi adını qazanıb. 2021-ci ildə isə o, pankration və qrappling üzrə Açıq Bakı çempionatının qalibi olub.

*...və dünya çempionluğu*

Röya Abdullayevanın cəmi 13 yaşı olsa da, yetərincə adından söz etdirib. Hazırda onun perspektivi olduqca yüksək qiymətləndirilir. Son olaraq qazandığı uğur bunu deməyə vadar edir. Belə ki, Türkiyənin Antalya şəhərində keçirilən universal döyüş üzrə dünya çempionatında qızlar arasında 12-13 yaş kateqoriyasında 47 kiloqram çəki dərəcəsində mübarizə aparan Röya Abdullayeva klassik və layt versiyaları üzrə qalib olaraq 2 qızıl medal qazanıb. Qazanılan bu uğuru daha əhəmiyyətli edən bir məqam var – Röya adını Naxçıvan idmanı tarixinə dünya çempionu olan ilk qız idmançı kimi yazdırmağı bacarıb: "Etiraf edim ki, bu barədə məlumatım yox idi. Əsas məqsədim dünya çempionatından medalla qayıtmaq, uğur qazanmaq idi ki, bunun da öhdəsindən gəldim. Dünya çempionu adını qazanan ilk qız idmançı olmaq isə məsuliyyəti daha da artırır. Bundan sonra daha böyük uğurlar qazanıb, göstərilən etimada layiq olmağa çalışacağam".

*Oyuncağı üçün darıxan Röya*

İlk baxışdan fərqli təəssürat yaratsa da, əslində, qəhrəmanımız xarici görünüşcə sakit, təmkinli biridir. Uşaqlıqdan oğlanlarla məşq etsə də, heç vaxt əks cinsin nümayəndələri ilə dava etməyib. Hətta məşqlərə görə sevimli oyuncağını – gəlinciyini bacısına hədiyyə edib. Etiraf edir ki, bəzən oyuncağı üçün darıxır, lakin həftənin 4 günü məşq etdiyindən vaxtı olmur. "Boş vaxtın olarkən nə edirsən? Hobbin nədir?" suallarına isə belə cavab verir: "Əslində, hobbim yoxdur. Sadəcə, vaxt tapan kimi dərslərimlə məşğul olur, əlavə olaraq kiçik hekayələr oxuyuram".

Naxçıvan şəhərindəki 5 nömrəli tam orta məktəbin səkkizinci sinfində təhsil alan idmançımız dərslərindən də geri qalmır. Deyir ki, idmançı olmasaydım, böyük ehtimalla dərslərimə daha çox vaxt ayırıb uşaq həkimi və ya dizayner peşəsini seçərdim.

Artıq kiçik yaşlarından dünya çempionluğu tituluna yiyələnən idmançımız bununla kifayətlənmək fikrində deyil. Təbii ki, qazanılan bu uğurda istedadı ilə yanaşı, muxtar respublikada idmana və idmançılara göstərilən qayğı, yaradılan şərait də mühüm rol oynayır: "Biz idmançıların uğur qazanması, idman ənənələrini layiqli təmsil etməyimiz üçün hər bir imkan yaradılıb. Biz idmançılar bundan maksimum yararlanmalı, göstərilən diqqəti və qayğını hər zaman üzərimizdə hiss etməli və uğurlarımızı davam etdirməliyik".

*Portret*

İdmanda belə bir deyim var: "İmkansız bir şey yoxdur. Yetər ki, işin içində ağıl və zəhmət olsun. Nə qədər çox xəyal qursan, o qədər uğurlu olacaqsan". Bəli, qəhrəmanımız Röya Abdullayevanın bir çox xəyalı, arzusu var. Və bunları reala çevirməsi üçün idmançımız parlaq istedada, sarsılmaz əzmə sahibdir. Bu cür təfəkkürə, döyüşçü ambisiyasına malik olan bir qıza da dünya çempionluğu yaraşır...

**✍ Ceyhun MƏMMƏDOV**

## Yeniyetmə güləşçilərin muxtar respublika birinciliyinə start verilib

İlham Əliyev adına Olimpiya İdman Kompleksində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş sərbəst güləş üzrə muxtar respublika birinciliyi keçirilir.



Yeniyetmələr (2005-2007-ci illər) arasındakı yarışa şəhər və rayonlardan 6 komanda olmaqla, ümumilikdə, 70-dən çox güləşçi qatılıb. Olimpiya sisteminə əsasən qalib və mükafatçıların məlum olacağı mübarizədə 10 çəki dərəcəsi üzrə görüşlər keçirilir. Nəticələr həm fərdi, həm də komandalar üzrə hesablanacaq. Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Güləş Federasiyası tərəfindən birgə təşkil olunan birincilik muxtar respublikada sərbəst güləşin inkişafı, idmançıların yarış təcrübəsinin artırılması və perspektivlilərin aşkar edilərək yığma komandaya cəlb edilməsi məqsədi daşıyır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə gününün tələbidir

***Sual:*** ***Vətəndaş nəqliyyat vasitəsini idarəetmə hüququndan hansı hallarda məhrum edilir?***

**Cavab:** Vətəndaşın nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum edilməsi halları Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə tənzimlənir. Belə ki, Cinayət Məcəlləsinin 45-ci maddəsinə əsasən nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrumetmə cəza növü Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda, cinayətin xarakteri, təqsirkar şəxsin şəxsiyyəti və cinayətin digər halları nəzərə alınmaqla, bir ildən beş ilədək müddətə təyin edilə bilər.

Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrumetmə qanunda yalnız əlavə cəza növü kimi nəzərdə tutulmaqla hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərin törədilməsinə görə məhkum olunan şəxslərə tətbiq edilir. Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrumetmə cəza növünün intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrumetmə cəzalarına əlavə olaraq təyin edildiyi hallarda, əlavə cəza əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə, hökmdə bu cəza növü üçün müəyyən edilmiş müddətə şamil olunur. Bu cəza növünün digər əsas cəzalara əlavə olaraq təyin edildiyi hallarda, habelə şərti məhkumetmə zamanı əlavə cəzanın müddəti hökmün qanuni qüvvəyə mindiyi andan hesablanır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***


*İtmişdir*

Bağırov Xəyal Oqtay oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır

* * *

Teyyubov Hüseyn Nurəddin oğlunun adına olan M/V-051254 nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Şərur Rayon Kommunal Müəssisələri Kombinatına məxsus Qaz-3307 markalı avtomobilin 85-AC-798 nömrəsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ *qapısı*

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Güntac Şahməmmədli

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 1070